# PERSONALİA
# ПЕРСОНАЛИИ
# PERSONAL NEWS

## VİLAYƏT ƏLİYEV – 80




Filologiya elmləri doktoru, professor Vilayət Hüseyn oğlu Əliyev 1938-ci ildə Şəki rayonunun Daşbulaq kəndində köçkün ailəsində anadan olmuşdur. Tale onun valideynlərinin üzünə gülməmişdir. Ailələri repressiyaya məruz qalmış və beləliklə, Azərbaycana pənah gətirmişdir. Naxçıvan, Şəki, Salyan (burada Vilayət Əliyev müəllim işləmişdir) bu ailənin tərcümeyi-halına yazılmış, şəxsən Vilayət Əliyevin dədə-baba yurd yerindən sonra ən çox istədiyi bölgələrdir. Yeri gəlmişkən, həyat bu ailəni min bir məşəqqətə düçar etmişdir. Vilayət Əliyev ailəsinin bərkə-boşa düşmüş övladlarından biri olmaqla hələ uşaqlıqdan torpaq, yurd itkisinin ağrı-acısını dadmışdır.

Vilayət Əliyev 1960-cı illərdən dilçilik sahəsində fəaliyyət göstərir. Onun elmi tədqiqatları Azərbaycan dilçiliyi və türkologiya ilə bağlıdır. 200-ə yaxın elmi məqalənin və “Azərbaycan dilində feilin təsriflənməyən formaları”, “Məsdər”, “Azərbaycan dilində feili sifət”, “Azərbaycan dilində feilin perifrastik formaları”, “Toponimika”, “Azərbaycan toponimiyası” kimi kitabların müəllifidir. Azərbaycan MEA-nın nəşr etdirdiyi 3 cildlik “Müasir Azərbaycan dili” əsərinin müəlliflərindən biridir.

Vilayət Hüseyn oğlu Əliyev Pedaqoji Texnikumu bitirdikdən sonra Salyanın Noxudlu kəndində gənc müəllim kimi fəaliyyətə başlamışdır. 3 il sonra ali təhsilin vacib olduğunu düşünərək Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuşdur. Xoşbəxtlikdən tanınmış alimlərin mühazirələrini dinləmiş və seminarlarında iştirak etmişdir. Vilayət müəllim unudulmaz tələbəlik illərindən söhbət açarkən Ə.Sultanlın, M.Cəlalı, H.Araslını, M.Hüseynzadəni, H.Mirzəzadəni, M.Təhmasibi, M.Şirəliyevi, P.Xəlilovu, R.Rüstəmovu, Y.Seyidovu, M.Rəhimovu və digər böyük alimləri xoş xatirələrlə yad edir. Şübhəsiz ki, onun elm yolunu seçməsində bu ziyalıların, alimlərin şəxsi nümunəsi heç də az rol oynamamışdır. Odur ki, Vilayət müəllim müəllimlərinin yolunu tutmuş, öz taleyini tədqiqata və pedaqoji fəaliyyətə həsr etmişdir. Və təsadüfi deyildir ki, Daşkənddə aspiranturada təhsil almışdır. Daşkənd mühiti Vilayət Əliyevin həyatında böyük rol oynamış, xüsusilə, həmyerlimiz Maqsud Şeyxzadə ilə yaxından tanış olmuşdur. Vilayət müəllim həmin günləri xatırlarkən Maqsud Şeyxzadə ilə bağlı olan təəssüratlarını belə dilə gətirir:

– Bizim axırıncı və son görüşümüz 1965-ci ilin martında oldu. Mən həmin gün dissertasiya müdafiə edirdim. Müdafiə özbək dilində getməli idi. Akademik M.Ş.Şirəliyev, elmi rəhbərim professor Q.Ə.Əbdürrəhmanov deyirdilər ki, sən bu gün iki imtahan verirsən: həm yazdığın əsəri müdafiə etməli, həm də özbək dilini necə öyrəndiyini nümayiş etdirməlisən.

Vilayət Əliyev 2 il müddətində “Azərbaycan və özbək dillərində feili sifət” mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etdikdən sonra gənc alim kimi Azərbaycan Xarici Dillər İnstitutunda (indiki Azərbaycan Dillər Universitetində) işə başlamış və sonralar Naxçıvan Pedaqoji İnstitutunda (indiki Naxçıvan Dövlət Universitetində) dosent kimi fəaliyyət göstərmişdir.

Vilayət Əliyev filologiya elmləri doktoru, professor, tanınmış pedaqoq və əməkdar müəllim kimi öz xeyirxah müəllimlərindən öyrəndiklərini yaşadır, ürək genişliyi ilə, səxavətlə tələbələrinə öyrədir. Və bu işindən ləzzət alır. Onun dərs dediyi tələbələrin bir çoxu hazırda Respublikamızın müxtəlif yerlərində və müxtəlif sahələrdə ləyaqətlə, şərəflə çalışırlar. Vilayət Əliyev tələbələrinin uğurlarına, nailiyyətlərinə sevinən müəllimlərimizdəndir. Bu xoş sözləri onun tələbələri adından inamla söyləyirik.

Vilayət Hüseyn oğlu Əliyevin elmi-pedaqoji fəaliyyətinin böyük bir hissəsi Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə bağlı olmuşdur. O, 1990-cı ildə doktorluq dissertasiyası müdafiə etmiş, feilin təsriflənməyən formalarını müqayisəli şəkildə araşdırmış, bu məsələyə kompleks şəkildə yanaşmaqla məsdərin, feili sifətin, feili bağlamanın həm ümumi, həm də xüsusi əlamətlərini açıqlamışdır. Əlbəttə, feilin təsriflənməyən formaları kimi ağır zəhmət tələb edən bir mövzunu işləmək tədqiqatçıdan dilçilik vərdişləri, geniş erudisiya, dilin morfoloji və sintaktik xüsusiyyətlərini dərindən bilmək, bütövlükdə dilin təbiətinə və ruhuna olduqca yaxın olmaq və s. keyfiyyətlər tələb edir. Məhz bu xüsusiyyətlərə qadir olan Vilayət Əliyev nəinki Azərbaycan dilçiliyini, eyni zamanda türkologiyanı yeni-yeni elmi-nəzəri müddəalarla zənginləşdirə bilmişdir. Xüsusilə, feilin təsriflənməyən formalarının mahiyyəti, feilin təsriflənməyən formalarının nitq hissələri arasında mövqeyi, təsriflənməyən formaların feilin şəkillərinə, zaman və şəxs kateqoriyalarına münasibəti, atributivlik, təsriflənməyən forma şəkilçilərinin xarakteri və s. məsələlər türkoloji dilçiliyin elmi-nəzəri səviyyəsinin yüksəlməsinə xidmət etmişdir.

Vilayət Əliyev Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dilçiliyi kafedrasında, bu gün isə Müasir Azərbaycan dili kafedrasında çalışmaqla, mötəbər bir sahəyə – elm sahəsinə elmi işlər üzrə prorektor kimi 20 ildən çox rəhbərlik etməklə, hal-hazırda rektorun müşaviri vəzifəsində çalışmaqla yenə də nəinki Azərbaycan dilçilik elminə, həm də bütövlükdə elmimizə xidmət edir.

Vilayət Əliyev İ.Nəsimi adına Dilçilik İnstitutunun nəzdində fəaliyyət göstərən müdafiə şurasının həmsədridir. O, burada da namizədlik və doktorluq dissertasiyalarının yüksək səviyyədə müdafiəsi üçün əlindən gələni əsirgəmir.

Vilayət Əliyev o qəbildən olan dilçi türkoloqlardandır ki, həmişə işləyir, araşdırma aparır, məqalələrini, yeni-yeni kitablarını çap etdirir. Onun doktorluq müdafiəsindən 27 il keçir. Bu müddət ərzində “Azərbaycan toponimiyası”, “Toponimika”, “Zəngəzurda qalan izimiz”, “Heydər Əliyevin dil siyasəti” və s. kitabları, yüzlərlə məqalələri çap olunmuşdur.

Vilayət Əliyevin çap etdirdiyi kitablara elmi ictimaiyyət biganə qalmamış, öz müsbət rəylərini, fikirlərini və mövqelərini dönə-dönə bildirmişlər. Təkcə onu qeyd etmək kifayətdir ki, “Zəngəzurda qalan izimiz” kitabı ilə bağlı “Kredo”, “Xalq qəzeti”, “Azərbaycan” qəzetlərində, “Vektor” beynəlxalq elm dərgisində elm adamlarının, siyasətçilərin onlarla məqalələri çap olunmuşdur. Bu məqalələrin hər birində Vilayət Əliyevin vətəndaş mövqeyi, alim təəssüb-

keşliyi, azərbaycançılıq məfkurəsinə sadiqliyi, başımıza gələn faciələrə biganə qalmaması və s. geniş şəkildə işıqlandırılmışdır. Əslində Vilayət Əliyev son dövrdə yazdığı kitablarında Azərbaycan dövlətinə, dövlətçiliyinə, dövlətin ideologiyasına sadiqliyini mübariz bir alim kimi sübut edir. Elmi həqiqətləri ortaya qoymaqla yanaşı, milli təəssübkeşliyini, hissiyyatını gizlətmir.

Vilayət Əliyev bütün varlığı ilə türkçüdür, türk dünyasını və türkoloji düşüncəni, məfkurəni qəbul edən, təbliğ edən türkoloqlardan biridir. 1999-cu ilin iyul ayında Türkiyədə keçirilən Türk dövlətləri və topluluqlarının VII qurultayında iştirak etmək, 1998-ci ildə ADPU-da deportasiya ilə bağlı keçirilmiş konfransın təşkilatçılarından biri olmaq, eləcə də “Kitabi Dədə Qorqud”un 1300 illik yubileyinin qocaman ali təhsil müəssisəsində – ADPU-da keçirilməsini təşkil etmək – bütün bunların hamısı Vilayət Əliyevin bir alim kimi ali hislərə, düşüncəyə və milli-mənəvi dəyərlərimizin qorunmasında əsl ziyalılara məxsus olan keyfiyyətlərə qadirliyindən xəbər verir.

Vilayət Əliyev o qəbildən olan ziyalılarımızdandır ki, Respublikamızın ictimai-siyasi həyatına da biganə deyildir. Onun ictimai-siyasi fəallığında da bir alim-vətəndaş mövqeyi vardır. Hələ keçən əsrin 90-cı illərində Azərbaycanın siyasi, iqtisadi, mədəni həyatında boşluq, anarxiya, hərc-mərclik sürdüyü zaman müdrik ağsaqqalımız, ulu öndərimiz Heydər Əliyevin ətrafında dərin zəkalı, yüksək mədəniyyətli, müstəqil düşüncəli, milli qürurlu, peşəkar insanların birləşməsinə böyük ehtiyac vardı. Məhz Ulu Öndərimizin ətrafında birləşən “91” vətənpərvər ziyalıdan biri də Vilayət Əliyev olmuşdur. Bu gün “91”-lər adı ilə tarixə yazılmış vətənpərvər ziyalılardan biri olan Vilayət Əliyev Azərbaycanın naminə heç bir təqib və təzyiqdən qorxmayaraq 16 oktyabr 1992-ci ildə “Səs” qəzetində ulu öndərə müraciət edənlərdən biri kimi həmişə bu işi ilə qürur və fəxr duyduğunu söyləyir. Mövqelər, münasibətlər, əqidələr, siyasi görüşlər zamanın imtahanından bəzən üzüağ çıxa bilmir. Ancaq Vilayət Əliyevin dəstəklədiyi Yeni Azərbaycan Partiyası da, onun yaradıcısı ulu öndər Heydər Əliyev də, bu görkəmli siyasi xadimin siyasi kursu da zamanın imtahanından alnıaçıq çıxdı. Vilayət Əliyev isə ictimai-siyasi fəaliyyətində mövqeyini, münasibətini, əqidəsini, siyasi görüşünü dəyişmədi və axıra qədər sadiq və sədaqətli oldu. Əgər mətbuatımıza fikir versək, görərik ki, Vilayət Əliyev həmişə ölkəmizin ictimai-siyasi həyatında öz sözünü deyən ziyalılarımızdan biridir. Ağa qara deyənlərə qarşı kəskindir, mübarizdir, hislərini, duyğularını gizlətmir. Əslində, o, Azərbaycanın ictimai-siyasi mühitində mövqeyi aydın, dəqiq, lazım gələndə dəniz kimi kükrəməyi bacaran, çəkinmədən həqiqəti söyləyə bilən bir alim-vətəndaş kimi tanınır. Filologiya elmləri doktoru, professor, əməkdar müəllim, ADPU-nun rektorunun müşaviri, YAP-ın siyasi şurasının üzvü Vilayət Əliyev üçün 2018-ci il əlamətdar bir ildir. 2018-ci ildə müqəddəs bir yaş – 80 yaş Vilayət müəllimin qapısını döydü. Sevinirik ki, Vilayət Əliyevin canı sağlam, ruhu təzə, enerjisi tükənməzdir. Hələlik 80 yaşlı Vilayət Əliyev üçün Peyğəmbərimizin bir fikrini söyləmək istərdim. Peyğəmbərimiz deyib ki, heç vaxt doymayan iki ac var: elm acı və var-dövlət acı. Vilayət Əliyev elmi tədqiqatlarından, elmi fəaliyyətindən doymayan bir alim kimi hələ yeni-yeni əsərləri, məqalələri ilə Azərbaycan dilçilik elmini sevindirəcəkdir. Ona bu yolda uğurlar, cansağlığı arzulayır, "80 yaşınız mübarək olsun!" deyirik.

*Buludxan Xəlilov*

# FATİH KİRİŞÇİOĞLU – 60



Türkiye Cumhuriyeti Devleti'nin kurucusu Mustafa Kemal Atatürk'ün devletin kuruluşundan sonra bizzat ilgilendiği konulardan biri Türkçedir. Bu ilgisinin neticesinde ise Atatürk, 12 Temmuz 1932'de eski adı Türk Dili Tetkik Cemiyeti olan Türk Dil Kurumunu kurdurmuş, dilde sadeleşme çalışmalarına kendi ürettiği terimlerle katkı sağlamış, daha sonra Güneş-Dil Teorisi'nin savunucusu olmuş ve ömrünün sonuna kadar da Türkçenin meseleleriyle yakından ilgilenmiştir.

Türk Dil Kurumunun ilk yıllarında en önemli gündem maddeleri Türkçeyi yabancı kelimelerden arındırmak ve Türkçenin kendi imkânlarıyla yeni terimler üretmek olmuştur. Kurumun bu faaliyetlerinin yanı sıra İstanbul Üniversitesinde ve Dil ve Tarih-Coğrafya Fakültesinde yer alan Türkoloji bölümlerinde de Cumhuriyetin ilk kuşak Türkologları, Türkiye Türkolojisinin temellerini atmaya başlamıştır. Bu kuşağın en önde gelen ismi şüphesiz Mehmet Fuat Köprülü'dür. Köprülü'nün yanı sıra Reşit Rahmeti Arat, Zeki Velidi Togan, Ahmet Caferoğlu, Ali Nihat Tarlan, Pertev Naili Boratav, Akdes Nimet Kurat, Abdülkadir İnan, Tahsin Banguoğlu, Agop Dilaçar, Ahmet Temir ve Saadet Çağatay gibi isimler de üniversitelerde verdikleri derslerle ve yetiştirdikleri isimlerlerle dil, edebiyat, tarih ve folklor gibi alanların Türkiye'de önemli disiplinler hâline gelmesinde büyük rol oynamışlardır. Birinci kuşak olarak adlandırabileceğimiz bu isimlerin doğum tarihleri 1890-1915 arasındadır ve bu kuşaktan 2018 itibarıyla hayatta olan yoktur.

Yukarıda adları zikredilen birinci kuşak Türkologlar, Mehmet Kaplan, Vecihe Hatiboğlu, Hasan Eren, Kaya Bilgegil, Haluk İpekten, Hüseyin Ayan, Muharrem Ergin, Zeynep Korkmaz, Osman Nedim Tuna, Faruk Kadri Timurtaş, Ömer Faruk Akün, Talat Tekin, Şinasi Tekin, Kemal Eraslan, Ali Fehmi Karamanlıoğlu ve Necmettin Hacıeminoğlu gibi isimlerin yer aldığı ikinci kuşağı yetiştirmiştir. Bu kuşaktakilerin doğum tarihleri 1915-1935 arasındadır. İkinci kuşak Türkologlardan Zeynep Korkmaz, Hüseyin Ayan ve Kemal Eraslan hayattadır.

Bu kuşaktan sonra ise 1935-1950 tarihleri arasında doğan Mustafa Canpolat, Tuncer Gülensoy, Saim Sakaoğlu, Efrasiyap Gemalmaz, Mertol Tulum, İnci Enginün, Ahmet Bican Ercilasun, Nuri Yüce, Dursun Yıldırım, Osman Fikri Sertkaya, Hamza Zülfikar, Semih Tezcan, Fikret Türkmen, Günay Karaağaç ve Yavuz Akpınar gibi isimlerin yer aldığı üçüncü kuşak gelmektedir. Burada isimleri yer alan üçüncü kuşak Türkologlardan Semih Tezcan haricindekiler hayattadır. Üniversitelerin ve buna bağlı olarak Türkoloji kürsülerinin artmaya başladığı dönemde görev yapan üçüncü kuşak Türkologlarla birlikte Türkiye Türkolojisi önemli bir mesafe almaya başlamıştır. Günümüzde akademik faaliyetlerin devam ettiği Türkoloji kürsülerinin

birçoğu bu kuşağın yetiştirdiği dördüncü ve beşinci kuşak Türkologlardan oluşmaktadır.

Prof. Dr. Mehmet Fatih Kirişçioğlu, 24 Ekim 1958'de doğmuştur. Kirişçioğlu, doğum tarihi itibarıyla 1950-1965 arasında doğan dördüncü kuşak Türkologlardandır. Yukarıda saydığımız birçok isim Kirişçioğlu'nun doğrudan ya da dolaylı olarak hocalığını yapmıştır. Bu isimlerden ikisi, Kirişçioğlu'nun akademik hayatındaki önemli merhalelerin rehberliğini de yapmıştır. Bu isimlerden ilki yüksek lisans tezinin danışmanı ikinci kuşak Türkologlardan Prof. Dr. Kemal Eraslan, diğeri ise doktora tezinin danışmanı üçüncü kuşak Türkologlardan Prof. Dr. Ahmet Bican Ercilasun'dur. Yani kendisini dördüncü kuşak olarak nitelendirdiğimiz Kirişçioğlu, ikinci ve üçüncü kuşağın öğrencisi, beşinci kuşağın ise hocasıdır.

1958 yılında Ankara'da doğan Kirişçioğlu ilk, orta ve lise eğitimini de Ankara'da tamamlamıştır. 1981 yılında Selçuk Üniversitesi Edebiyat Fakültesi Türk Dili ve Edebiyatı Bölümüne girmiştir. Bu bölümden 1985 yılında *Eski Türk Abidelerinde Cümle Unsurları* adlı bitirme teziyle mezun olmuş ve aynı yıl bu bölümde araştırma görevlisi olarak işe başlamıştır. 1988 yılında Prof. Dr. Kemal Eraslan'ın danışmanlığında *Mütercim Asım Efendi'nin Kamus Tercümesi'ndeki Uzuv İsimleri* adlı yüksek lisans tezini savunmuştur. 1992'de ise Prof. Dr. Ahmet Bican Ercilasun'un danışmanlığında hazırladığı *Yakut Türkçesinde Fiil* başlıklı doktora tezini savunmuştur. Doktorasını bitirdikten sonra 1994 yılında o zamanki adıyla Gazi Üniversitesi Fen-Edebiyat Fakültesi Çağdaş Türk Lehçeleri ve Edebiyatları bölümünde yardımcı doçent olarak göreve başlamıştır. Doçent ve profesör unvanlarını da bu bölümde görev yaptığı sırada almıştır. 2018 itibarıyla 24 yıldır aynı bölümde çalışmaktadır. Kirişçioğlu, evli ve iki çocuk babasıdır.

M. Fatih Kirişçioğlu, adı geçen bölümde birincisi 2001-2004 yılları arasında, ikincisi 2007-2008 yılları arasında olmak üzere bölüm başkanlığı görevini yürütmüş, 2014'te başlayan üçüncü başkanlık dönemi ise hâlen devam etmektedir. Ayrıca 2004-2007 yılları arasında aynı fakültenin Batı Dilleri ve Edebiyatları bölümünün başkanlığını da yapmıştır. Bu görevlerinin yanı sıra 2008 yılında Gazi Üniversitesi Türkçe Öğrenim Araştırma ve Uygulama Merkezi (TÖMER) başkanlığına atanmış ve 2012 yılına kadar bu görevini sürdürmüştür. Kirişçioğlu, Dış İşleri Başkanlığı-TİKA ve Türk Dil Kurumunun ortaklaşa yürüttüğü *Türk Lehçelerinin Ortak Sözlüğü ve Grameri* başlıklı projede yürütücü ve koordinatör olarak, *Türk Destanlarının Tespiti ve Yayımlanması* ve *Göktürk-Runik Yazılı Âbideler* projelerinde de yürütme kurulu üyesi ve raportör olarak yer almıştır. *Dil Araştırmaları, Türk Dünyası – Dil ve Edebiyat-, Türk Yurdu, S.Ü. Türkiyat Araştırmaları, H.Ü. Türkiyat* dergilerinin yayın kurulu üyesidir. *Bilig, Türklük Araştırmaları, Avrasya Dosyası, Millî Folklor* gibi dergiler başta olmak üzere birçok dergi için de hakemlik yapmaktadır. Kirişçioğlu ayrıca *Türk Ocakları, Türkiye Yazarlar Birliği, Avrasya Yazarlar Birliği İLESAM, TİSAV, Türkologlar Birliği* gibi kuruluşların üyesidir.

Sovyetler Birliği'nin dağılmasından sonra Türkiye'de Türk topluluklarıyla ilgili çalışmalarda gözle görülür bir artış olmuş ve bu süreçte neredeyse bütün Türk topluluklarının uzmanları yetişmiştir. Ancak günümüzde Sibirya Türklüğünün dili, edebiyatı ve folkloru üzerine çalışma yapanların sayısı diğer bölge uzmanlarının sayısına nispeten daha azdır. M. Fatih Kirişçioğlu, Sovyetler Birliği'nin dağılmasının ardından Türkiye'de yetişen önden gelen Sibirya uzmanlarındandır. Bilhassa Saha Türkleri üzerine yaptığı çalışmalar alanın başucu eserlerindendir. Bununla birlikte öğrencilerine Saha Türkleri başta olmak üzere Sibirya'daki Türk topluluklarıyla ilgili lisansüstü seviyede çalışmalar yaptırmıştır. Ayrıca Türkmen Türkçesi ve tarihî Türk lehçeleri, Kirişçioğlu'nun çalışmalar yaptığı diğer alanlardır. Buna bağlı olarak da görev

yaptığı bölümde geçmişten günümüze kadar Eski Türkçe ve Orta Türkçe dersleri ile Türkmen Türkçesi ve Saha Türkçesi ile ilgili dersler vermiştir. Kirişçioğlu bilimsel araştırmaları çerçevesinde Balkan ülkeleri, Rusya, Ukrayna, Suriye, Türkmenistan, Kazakistan, Saha Cumhuriyeti, Başkurdistan, Tataristan, İran, Kıbrıs, Kırgızistan, Azerbaycan, Macaristan, Romanya, Moğolistan, Polonya ve Amerika Birleşik Devletleri'nde bulunmuştur. Bugüne kadar dört kitabı yayımlanan Kirişçioğlu'nun kitap bölümü, makale ve bildirilerinin toplam sayısı ise yüzden fazladır.

M. Fatih Kirişçioğlu, Türkoloji alanında ortaya koyduğu eserlerden ve bu alana verdiği hizmetlerden dolayı birçok ödüle de layık görülmüştür. *Saha (Yakut) Türkçesi Grameri* adlı eseriyle "Türkiye Yazarlar Birliği 1994 Dil Ödülü"nü kazanmıştır. Saha Türkleri üzerine yaptığı araştırmalardan dolayı "Türk Ocakları 1996 Ziya Gökalp İlim ve Teşvik Ödülü"ne layık görülmüştür. 2012 yılında Tataristan, Kazan Tisbi Üniversitesi tarafından "fahri doktora" payesi ile ödüllendirilmiştir. 2016 yılında kendisine UASEB tarafından "Hoca Ahmet Yesevi Türk Dünyasına Hizmet Ödülü" verilmiştir. 2017 yılında "Türk Cumhuriyetleriyle İlişkilerin 25. Yılı"na ithaf edilen törende bugüne kadar ilişkilere sağlamış olduğu katkılardan dolayı TÜRKSOY tarafından madalya ile ödüllendirilmiştir.

Türklüğe ve Türkçeye önemli hizmetlerde bulunmuş olan Prof. Dr. Mehmet Fatih Kirişçioğlu'nu 60. yaş günü vesilesiyle kutlar kendisine sağlıklı ve mutlu bir yaşam dileriz.

*Orhan Baldane*

# MƏHƏRRƏM MƏMMƏDOV – 60



Görkəmli dilçi alim, tanınmış türkoloq, Bakı Dövlət Universitetinin Türkologiya kafedrasının professoru, filologiya üzrə elmlər doktoru Məhərrəm Əvəz oğlu Məmmədovun 60 yaşı tamam olur. M.Məmmədov 1958-ci il oktyabrın 10-da Zərdab rayonunun Əlvənd kəndində anadan olmuşdur. 1975-ci ildə Göyçay şəhərində 6 saylı orta məktəbi, 1980-ci ildə isə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini bitirmişdir. 1980-1986-ci illərdə İsmayıllı rayonunun İstisu və Aşağı Cülyan kəndlərində Azərbaycan dili və ədəbiyyatı müəllimi vəzifəsində işləmişdir.

1986-1989-cu illərdə "Azərbaycan dili" ixtisası üzrə Azərbaycan Milli Elmlər Akademiyası İ.Nəsimi adına Dilçilik İnstitutunun əyani aspirantı olmuş, 1989-cu ildə görkəmli dialektoloq Musa İslamovun rəhbərliyi altında yazdığı "Azərbaycan dilinin Təbriz dialekti" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1989-1997-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dialektologiyası şöbəsində elmi işçi vəzifəsində çalışmış, 1998-ci ildən Bakı Dövlət Universitetinin Türkologiya kafedrasında baş müəllim kimi fəaliyyətini davam etdirmişdir.

M.Məmmədov 2006-cı ildə "Azərbaycan dili şivələrində ismin qrammatik kateqoriyaları" mövzusunda elmlər doktorluğu dissertasiyası müdafiə etmişdir. 2009-cu ildə dosent, 2012-ci ildə professor elmi adlarını almışdır. Professor M.Məmmədov 2007-2015-cu illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının filologiya bölməsində ekspert olmuşdur. 2015-ci ildən AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən Dissertasiya Şurasının üzvüdür. O, 2008-ci ildən BDU-nun Filologiya fakültəsinin Tədris Metodiki Şurasının sədridir.

M.Məmmədovun elmi fəaliyyətinin əsas istiqamətini Azərbaycan dili şivələrinin müasir vəziyyətinin öyrənilməsi təşkil edir. Bu baxımdan onun qələminə məxsus "Azərbaycan dili şivələrində ismin qrammatik kateqoriyaları" (2003), "Azərbaycan dilinin Təbriz dialekti" (2008) adlı monoqrafik tədqiqatları özünün yüksək elmi keyfiyyəti ilə seçilir.

"Azərbaycan dilinin Təbriz dialekti" əsəri Azərbaycan dilinin bu dialektinə həsr olunmuş ilk monoqrafik tədqiqatdır. Burada tədqiq olunan şivənin fonetik, leksik, morfoloji və sintaktik xüsusiyyətləri barədə müfəssəl məlumat verilir. Keçən əsrin 80-ci illərində belə mövzu üzərində işləmək həddindən artıq çətin bir iş idi. Təbrizə gedib material toplamaq imkanı olmayan tədqiqatçı Təbrizdən Şimali Azərbaycana gəlmiş mühacirlərin danışığı və Təbriz dialektinə aid xarici türkoloqların çap etdirdiyi dialektoloji materiallar əsasında araşdırma aparmış, Azərbaycan dilinin bu dialektinin xa-

rakterik xüsusiyyətlərini aşkara çıxara bilmişdir.

"Azərbaycan dili şivələrində ismin qrammatik kateqoriyaları" əsəri isə tədqiqat metodunun fərqli olması ilə diqqəti çəkir. Bu əsərdə təsviri metod tarixi-müqayisəli, bəzən də tipoloji metodlarla birgə tətbiq olunur, Azərbaycan dilinin dialekt materialları Ural-Altay dillərinin materialları ilə müqayisədə verilir. Bu, Azərbaycan dialektologiyasında yeni istiqamətdir və M.Məmmədovun adı ilə bağlıdır. Bu əsər eyni zamanda dil materiallarının təsvir olunmasını deyil, müqayisə olunaraq ümumiləşdirilməsini də özündə əks etdirdiyindən sonrakı dialektoloji tədqiqatlar üçün də xüsusi əhəmiyyətə malikdir. Onun əsərlərində Azərbaycan dili şivələrində müşahidə olunan ikiqat hallanma, mənsubiyyət şəkilçisinin ikiqat işlənməsi, qədim cəmlik və hal şəkilçilərini özündə hifz edən relikt formalar və digər bir çox dil təzahürlərinin mənşəyi izah olunmuşdur.

M.Məmmədov Azərbaycan dilinin ayrı-ayrı şivələrinin dialektoloji atlasının və lüğətlərinin hazırlanmasında da yaxından iştirak edir. Onun həmmüəllif olduğu "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası" (2015), "Azərbaycan dilinin Naxçıvan dialektoloji lüğəti" (2017) Azərbaycan dilçiliyinin müasir səviyyəsini əks etdirir.

Azərbaycan dialektologiyasına həsr etdiyi əsərlər içərisində "Gəncədə yaşayan təbrizlilərin bəzi dil xüsusiyyətləri" (1989), "Azərbaycan dili şivələrində ikiqat mənsubiyyət şəkilçisinin işlənməsi" (1998), "Qarabağ dialekti mənbələrdə" (2003), "Zərdab şivəsinin morfoloji xüsusiyyətləri" (2011), "Güney Azərbaycan şivələrinin tədqiqi, təsnifi və əsas xüsusiyyətləri" (2014), "Azərbaycan dialektologiyasının inkişaf mərhələləri" (2015), "Azərbaycan dialektologiyası: son nailiyyətlər və problemlər" (2015), "Zaqatala-Şəki bölgəsi şivələrində qərb elementləri (fonetik xüsusiyyətlər)" (2016), "Cənubi Azərbaycan şivələrində feilin zaman formaları" (2017) məqalələri yüksək elmi keyfiyyətinə görə xüsusi seçilir.

M.Məmmədovun əsərlərinin müəyyən qismi Azərbaycan dili tarixinin bir sıra mübahisəli məsələlərinə həsr olunmuşdur. Onun "Gəncə – Yelizavetapol – Kirovabad – Gəncə" (1998), ""Kitabi-Dədə Qorqud" abidəsində mənsubiyyət anlayışının ifadəsi" (1999), ""Kitabi-Dədə Qorqud" və Azərbaycan şivələri (ismin qrammatik kateqoriyaları nümunəsində)" (2000), "Etnoqrafik yaddaşımızı yaşadan sözlər" (2005), "M.Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri və Azərbaycan dili" (2009), ""Əkinçi" qəzetində dil məsələləri" (2013), "Y.Seyidov və dil tarixi məsələləri" (2017) adlı əsərləri buna nümunə ola bilər.

Bir sıra əsərləri müasir türk dillərinə, həmçinin Ural-Altay dillərinin türk dilləri ilə qohumluğu probleminə həsr olunmuşdur. Qeyd olunmalıdır ki, M.Məmmədov az tədqiq olunmuş türk dillərini öyrənir, bu dillərin türk dilləri içərisində tutduğu yeri müəyyənləşdirir. Onun Krım-tatar və urum dillərinə həsr etdiyi əsərləri məhz bu baxımdan öz aktuallığı ilə seçilir: "Krım-tatar dilində oğuz xüsusiyyətləri" (2010), "Azərbaycan və Krım-tatar dillərinin ortaq xüsusiyyətləri" (2013), "Urum dilinin mənşəyi, mövqeyi və əsas xüsusiyyətləri" (2017).

Müasir türkoloji dilçiliyin aktual problemləri (ortaq türk ədəbi dili, türk əlifbalarının unifikasiyası, türk dillərinin müqayisəli öyrənilməsinin xüsusiyyətləri və s.), Altay dilləri fərziyyəsinin tarixi və perspektivləri kimi məsələlər də onun diqqət mərkəzində olmuşdur: "Türk dilçiliyinin müasir problemləri" (2004), "Ural-Altay dillərində velyar n səsi" (2006), "I Türkoloji qurultayda Altay dilləri məsələsi" (2009), "Evenk dilinin əsas xüsusiyyətləri" (2010) və s.

M.Məmmədov 20 ildən artıq bir müddətdə səmərəli pedaqoji fəaliyyətlə məşğuldur, Azərbaycan dialektologiyası, Cənubi Azərbaycan dialektləri, Türkologiyaya giriş, Qədim türk dili, Altayşünaslığın əsasları fənlərindən dərs deyir. Onun hazırladığı "Azərbaycan dilinin Təbriz dialekti" (2008), "Azərbaycan dili şivələrində ismin

mənsubiyyət kateqoriyası” (2000) dərs vəsaitləri, “Azərbaycan dialektologiyasına dair mühazirələr” (2011) adlı metodik vəsait, “Azərbaycan dili şivələrində ismin qrammatik kateqoriyaları” (2002), “Türkologiyaya giriş (qiyabiçi tələbələr üçün)” metodik göstərişləri, “Mətnşünaslıq fənninin proqramı” (2003), “Linqvistik mətnşünaslıq fənninin proqramı” (2008), “Türk dilçiliyinin əsasları fənninin proqramı” (2016), “Cənubi Azərbaycan dialektləri fənninin proqramı” (2016), “Altayşünaslığın əsasları fənninin proqramı” (2016) həm metodik, həm də elmi baxımdan böyük əhəmiyyət kəsb edir.

M.Məmmədovun dialektologiya və türkologiyanın müxtəlif problemlərinə həsr olunmuş dərin nəzəri əsasa malik əsərləri onu respublikamızın hüdudlarından kənarda da tanıtmış, ona nüfuz qazandırmışdır. Onun əsərləri Ufa, Simferopol, Ankara, Qars, Tehran şəhərlərində çap olunmuşdur.

M.Məmmədov ixtisaslı elmi kadrların hazırlanmasında da yaxından iştirak edir. Onun rəhbərliyi altında iki fəlsəfə doktoru dissertasiyası müdafiə olunmuşdur. 7 dissertasiya işinin müdafiəsində o, rəsmi opponent kimi çıxış etmişdir.

Görkəmli alim və pedaqoq Məhərrəm Məmmədovu anadan olmasının 60 illiyi münasibəti ilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı və yaradıcılıq uğurları arzulayırıq.

*Elbrus Əzizov*
*Məmmədəli Novruzov*